AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyası.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 10 (1470), 30 mart - 5 aprel 2021-ci il

Qəzet 2001-ci ildən çıxır.



## Üzgüçümüz Tokio Olimpiadasına B lisenziyası qazanıb

Azərbaycan üzgüçüsü Ramil Vəlizadə Yay Olimpiya Oyunlarına milli komandamız adına növbəti lisenziyanı qazandırıb. Bu barədə Azərbaycanın Üzgüçülük Federasiyasından məlumat verilib. Türkiyənin İstanbul şəhərində 7 ölkənin iştirakı ilə keçirilən üzgüçülük üzrə Olimpiya Oyunlarına lisenziya xarakterli beynəlxalq yarışda Azərbaycan millisi 8 idmançı ilə təmsil olunub. Yarışın ilk günündə millimizin üzgüçüsü Ramil Vəlizadə 200 metr batterflyay üsulunda 1 dəqiqə 59 saniyə nəticə ilə beynəlxalq turnirin mütləq qalibi olaraq Tokio-2020 Yay Olimpiya Oyunlarına B lisenziyası qazanıb. Digər idmançımız Məryəm Şeixalızadəhangah 100 metr batterflyay üsulunda A finalına vəsiqə qazanaraq finalda gümüş medal, 50 metr batterflyay üsulunda isə A finalına vəsiqə qazanaraq finalda bürünc medala layiq görülüb.

Üzgüçülük üzrə millimizin ən gənc idmançılarından biri olan Əbdurrəhman Rüstəmov isə bu yarışda 200 metr batterflyay üsulunda (2 dəqiqə 9 saniyə) öz nəticəsini yaxşılaşdıraraq idman ustası normasını ödəyib. Digər idmançılarımız isə öz şəxsi nəticələrini yaxşılaşdırmaqla vətənə dönüblər.

Son 1 ayda millimiz nəticə etibarilə dörd idman ustası dərəcələri və Tokio-2020 Yay Olimpiya Oyunlarına B lisenziyası qazanıb. Bu da öz növbəsində Azərbaycan üzgüçülük tarixində yeni bir rekord göstəricidir.

## Cüdoçularımız lisenziya xarakterli yarışı 2 medalla başa vurdular

Gürcüstanın paytaxtı Tbilisidə keçirilən cüdo üzrə "Böyük Dəbilqə" turnirinə yekun vurulub. 80 ölkənin idmançılarının mübarizə apardığı beynəlxalq turnirdə 441 (241 kişi, 200 qadın) cüdoçu medallar uğrunda yarışıb. Turnirdə ölkəmizi 11 (7 kişi, 4 qadın) cüdoçu təmsil edib. Komandamız lisenziya xarakterli yarışı 2 bürünc medalla başa vurub. Komandamıza ilk bürünc medalı Kəramət Hüseynov (60 kq) qazandırıb.

Yarışın ilk günündə tatami üzərinə çıxan cüdoçumuz 1/16 finalda Rodriqo Lopesi (Portuqaliya), 1/8 finalda Ramazan Abdullayevi (Rusiya) mübarizədən kənarlaşdırıb. Sonra idmançımız 1/4 finalda Tornine Tsjakadoea ilə dueldən məğlub ayrılıb. Təsəlliverici görüşdə Monqolustan təmsilçisi Ariunbold Enkhtayvanla üz-üzə gələn Kəramət mübarizədən qalib ayrılıb. Cüdoçumuz 3-cü yer uğrunda qarşılaşmada Rusiyanı təmsil edən Konstantin Simeonidislə üz-üzə gəlməli idi. Rəqib zədə səbəbindən tatamiyə çıxmadığı üçün K.Hüseynov bürünc medal qazanıb.

Komandamıza növbəti bürünc medalı 81 kq çəki dərəcəsində mübarizə aparan Murad Fətiyev qazandırıb. Yarışa 1/32 finaldan başlayan cüdoçumuz ardıcıl olaraq Din Gemer (İsrail), Xose Mendiola (İspaniya) və Əbdülrəhman Məhəmmədi (Misir) mübarizədən kənarlaşdırıb. O, 1/4 finalda Toto Grigalaşvili (Gürcüstan) ilə dueldən məğlub ayrılıb. 81 kq çəki dərəcəsində mübarizə aparan idmançımız təsəlliverici qarşılaşmada Portuqaliyanı təmsil edən Anri Egutidze ilə üz-üzə gəlib. Rəqibinə qalib gələn M.Fətiyev bürünc medal uğrunda qarşılaşmaya vəsiqə qazanıb. Zədəli olan kanadalı rəqibi Antuan Valya-Fortye tatamiyə çıxmadığı üçün M.Fətiyev qalib elan edilib. Beləliklə 3-cü yeri tutan Azərbaycan cüdoçusu



Tokio Olimpiya Oyunlarına vacib lisenziya xalları qazanıb.

Beləliklə, "Böyük dəbilqə" turnirini 2 bürünc medalla başa vuran komandamız ümumi medal sıralamasında 16-cı yerdə qərarlaşıb. Medalların sayına görə Gürcüstan komandası (2 qızıl, 3 gümüş, 4 bürünc) birinci yerə layiq görülüb. İkinci və üçüncü yerləri, müvafiq olaraq, Kanada (2 qızıl, 1 gümüş, 1 bürünc) və Monqolustan (2 qızıl, 2 bürünc) yığmaları tutublar.

## *Fiqurlu konkisürənimiz Pekin-2022-yə vəsiqəni Stokholmda əldə edib*

Azərbaycanın fiqurlu konkisürəni Yekaterina Ryabova 2022-ci ildə Çinin paytaxtı Pekində təşkil olunacaq Qış Olimpiya Oyunlarına vəsiqə qazanıb.



"Olimpiya dünyası" qəzetinə bu barədə məlumatı Azərbaycan Fiqurlu Konkisürmə Federasiyasının prezidenti Rauf Xəlilov verib.

Y.Ryabova Qış Olimpiya Oyunlarına vəsiqəni martın 27-də Stokholmda (İsveç) keçirilən dünya çempionatında 12-ci yeri qazanmaqla əldə edib. Belə ki, qısa və sərbəst proqramla çıxış edən təmsilçimiz yekun nəticədə 189,46 bal toplayıb.

## A n o n s

*Bədii gimnastlarımız Dünya Kubokunda uğurla çıxış ediblər* Səh. 2

"Qarabağ" son 10 ilin ən yaxşı klubları sırasında Səh. 4

*Xoş niyyətlərlə yaşanan halal ömür* Səh. 5

Qadın məntiqi Səh. 6

Avropadan transfer xəbərləri Səh. 7

## *Olimpizm*

### Olimpiya məşəli estafetinin iştirakçısı müəyyən məsafəni məşəl yanmadan qaçıb

Yaponiyada Olimpiya məşəli estafetinin iştirakçılarından biri müəyyən məsafəni məşəl yanmadan qaçıb. Hadisənin Fukuşima prefekturasında yerləşən İtate kəndində baş verdiyi bildirilir. Alovun digər iştirakçıya ötürülməsi zamanı qaçışçılardan biri məşəlin yanmasına diqqət yetirməyib. Yalnız məsafənin sonuna yaxın məşəl yenidən ehtiyat odla alovlandırılıb və o, digər iştirakçıya yanaraq ötürülüb.

Qeyd edək ki, bu, məşəl estafetində baş verən ikinci hadisədir. Belə ki, bir gün əvvəl məşəllərdən biri güclü külək səbəbindən sönmüşdü.

Xatırladaq ki, məşəl estafeti Fukuşima prefekturasının Naraha şəhərində yerləşən "J-Village" futbol məşq mərkəzində start götürüb. Bu obyekt "Fukusima-1" AES-də qəzadan sonra dezinfeksiya işləri üzrə baza rolunu oynayıb. Hakimiyyət orqanları həmin yeri böyük zərər vurmuş güclü zəlzələ, sunami və atom qəzasından sonra həyatın bərpasının rəmzi kimi seçib.

Ümumilikdə estafetdə 10 minədək qaçışçının iştirak edəcəyi gözlənilir.

Qeyd edilir ki, 121 gün davam edəcək estafet ölkənin 47 prefekturasının 859 bələdiyyəsinin ərazisindən keçəcək.

Xatırladaq ki, Tokio Olimpiadası 2020-ci il iyulun 24-dən avqustun 9-dək keçirilməli idi. Lakin koronavirus pandemiyasına görə yarışların vaxtı bir il sonraya dəyişdirilib və onun iyulun 23-dən avqustun 8-dək təşkili gözlənilir.

Estafet iyulun 23-də məşəlin Tokio Milli Stadionunda Olimpiadanın açılış mərasiminə çatdırılması ilə başa çatacaq.

### Tokio-2020-də iştirak edəcək futbol komandaları müəyyənləşdi

Yaponiyanın paytaxtı Tokiodakı Yay Olimpiya Oyunlarında iştirak edəcək bütün futbol komandaları bəlli olub. Son olaraq Şimali, Mərkəzi Amerika və Karib hövzəsi ölkələri Futbol Konfederasiyasının (CONCACAF) iki komandası olimpiadaya vəsiqəni təmin edib.

Meksika və Hondurasın U-23 yığmaları CONCACAF zonası üzrə təsnifat turnirində finala vəsiqə qazanıblar. Honduras seçməsi yarımfinalda ABŞ-ı 2:1, Meksika isə Kanadanı 2:0 hesabı ilə üstələyib.

Beləliklə, Tokio-2020-də iştirak edəcək 16 komandanın hamısının adına aydınlıq gəlib. Bunlar Argentina, Avstraliya, Braziliya, Kot d İvuar, Misir, Fransa, Almaniya, Honduras, Yaponiya, Cənubi Koreya, Meksika, Yeni Zelandiya, Rumıniya, Səudiyyə Ərəbistanı, Cənubi Afrika, İspaniya komandalarıdır.

### Yaponiya hökuməti Olimpiadaya gələcək rəsmi qonaqların sayını azaltmağı planlaşdırır

Yaponiya hökuməti Tokio-2020 Yay Olimpiya və Paralimpiya Oyunlarına gələcək rəsmi qonaqların sayını iki dəfə azaltmaq imkanlarını araşdırır. Bu barədə Kyodo agentliyi şənbə günü məlumat yayıb.

Bildirilir ki, hazırda Olimpiya Oyunlarına təqribən 90 min xarici qonağın gələcəyi gözlənilir. Onların təqribən 30 mininin idmançılardan, komandaların digər üzvlərindən və xidmət heyətindən ibarət olacağı qeyd edilir.

Yaponiya hökuməti bu heyətdə yarışlarla birbaşa əlaqəsi olmayan əcnəbi qonaqların sayını təqribən iki dəfə azaltmaq istəyir. Yarışlara qatılmaq istəyən azarkeşlərin koronavirusla əlaqədar yaranmış vəziyyətə görə ölkəyə buraxılmaması barədə qərar artıq qəbul edilib.

Gimnastika

# Bədii gimnastlarımız Dünya Kubokunda uğurla çıxış ediblər



Bolqarıstanın paytaxtı Sofiyada keçirilən bədii gimnastika üzrə Dünya Kubokunda Azərbaycan komandası qrup hərəkətlərində çoxnövçülükdə ikinci yeri tutub (70,950 xal). Çoxnövçülükdə birinci yerə Bolqarıstan (84,350 xal), üçüncü yerə isə Yaponiya komandası (70,650 xal) sahib çıxıb. Yarışın ikinci günü 3 halqa və 2 cüt gürzlərlə proqramında çıxışa görə Ləman Əlimuradova, Zeynəb Hümmətova, Yelizaveta Luzan, Məryəm Səfərova və Daria Sorokinadan ibarət Azərbaycan komandası hakimlər briqadasından 33,500 xal alaraq Dünya Kubokunun finalına çıxıb.

Qeyd edək ki, yarışın ilk gününün nəticələrindən sonra qrup hərəkətlərində Azərbaycan komandası 37,450 xalla 5 topla hərəkətlərdə Kubokun finalına çıxmışdı.

Yarışın ikinci günü, gimnastlar fərdi proqramda da çıxış ediblər. Onlar gürzlər və lent ilə hərəkətlərdə kompozisiyalarını təqdim ediblər.

Azərbaycanı fərdi proqramda iki gimnast təmsil edib - Nərminə Səmədova və Arzu Cəlilova. Gürzlərlə hərəkətlərdə Nərminə Səmədova 18,700 xal, lent ilə hərəkətlərdə isə 18,150 xal alıb. Arzu Cəlilova öz növbəsində gürzlər ilə hərəkətlərdə 14.450 xal, lent hərəkətlərdə isə 17,750 xal toplayıb.

Azərbaycanı fərdi proqramda təmsil edən gimnastlar finala çıxa bilməyiblər.

Yarışın son günündə qrup hərəkətlərində Azərbaycan komandası bədii gimnastika üzrə Dünya Kubokunun bürünc medalını qazanıb. Ləman Əlimuradova, Zeynəb Hümmətova, Yelizaveta Luzan, Məryəm Səfərova və Darya Sorokinanın yer aldığı komanda üç halqa və iki dəst gürzlə hərəkətlərdə 33,450 xal toplayıb.

Birinci yeri Bolqarıstan komandası (39.750 xal), ikinci yeri Yaponiya komandası (35.800 xal) tutub.

# "Gimnastika hamı üçün" növü üzrə ilk milli onlayn festival keçirilib




Azərbaycan Gimnastika Federasiyasının (AGF) təşkilatçılığı ilə "Gimnastika hamı üçün" növü üzrə ilk milli onlayn festival keçirilib.

Onlayn festivalda 17 komanda öz çıxış proqramını təqdim edib. Bu komandalar arasında Masallı, Lənkəran, Zaqatala, Göyçay, İsmayıllı, Mingəçevir və Ağdaş təmsilçiləri də yer alıb.

6-16 yaş kateqoriyasında "Piratlar" komandası, 16-30 yaş kateqoriyasında "The Legends" komandası, 50 yaş və daha böyük yaş kateqoriyasında "Young and Beauty" komandası qalib olub.

Gimnastika yüksək səviyyəli yarışların keçirildiyi idman növü olmaqla yanaşı, bütün idman növlərinin əsasını təşkil edir. Ölkəmizdə "Gimnastika hamı üçün"ə aid ilk milli tədbir 2010-cu ildə Yeni il ərəfəsində təşkil olunmuş nağıl-tamaşa hesab olunur. Həmin ildən etibarən ənənəvi olaraq hər ilin sonunda Beynəlxalq Gimnastika Federasiyası (FİG) tərəfindən tanınan gimnastikanın 6 növü üzrə Azərbaycan yığma komandalarının gimnastları, məşqçiləri, xoreoqrafları "Gimnastika hamı üçün" adı altında birləşərək yadda qalan çıxışlar nümayiş etdirirlər.

## Milli komandamızın tərkibi açıqlandı

Aprelin 21-25-də İsveçrənin Bazel şəhərində idman gimnastikası üzrə Avropa çempionatı keçiriləcək. Çempionatda ölkəmizi 5 gimnast təmsil edəcək. Millimizin heyətində Ağamurad Qəhrəmanov, İvan Tixonov, Nikita Simonov, Marina Nekrasova və Milana Minakovskaya birincilik uğrunda mübarizə aparacaqlar.

Qeyd edək ki, turnirdə 38 ölkədən 280 idmançı mübarizə aparacaq.

## Bədii gimnastlarımızın Varna sınağı

İyunun 9-dan 13-dək Bolqarıstanın Varna şəhərində bədii gimnastika üzrə 37-ci Avropa çempionatı keçiriləcək. İlkin siyahıya əsasən, Azərbaycanı yarışda 14 idmançı təmsil edəcək. Böyüklər arasında 8, gənclər arasında 6 gimnast birincilik uğrunda mübarizə aparacaq.

Çempionatda 40 ölkədən 350-dən artıq gimnast iştirak edəcək.

## Batutçularımızın Belarus uğuru

Azərbaycanın batut gimnastikası üzrə yığma komandasının üzvləri Belarusun Vitebsk şəhərində keçirilən beynəlxalq yarışda uğurla çıxış ediblər. Yarışlarda 13 yaşlı yeniyetmə batutçularımız böyüklər yaş kateqoriyasında müvəffəqiyyətlə çıxış ediblər. Sinxron proqramda çıxışlarını nümayiş etdirən yeniyetmə gimnastlarımız Maqsud Maqsudov və Hüseyn Abbasov Olimpiada iştirakçıları ilə yarışaraq böyüklər arasında üçüncü nəticə göstəriblər.

M.Maqsudov fərdi proqramda da uğurla çıxış edib. O, Olimpiya çempionu Vladislav Qonçarovla eyni yaş kateqoriyasında yarışaraq, finalda yeddinci olmağı bacarıb. Bununla da təkcə məşqçi və hakimlərin deyil, gimnastların da rəğbətini qazanıb. Belə ki, Olimpiada qalibi V.Qonçarov onu təbrik edərək, "Sən mütləq Los-Ancelesdə keçiriləcək Olimpiya Oyunlarında medal qazanmalısan", - deyə bildirib.

Digər yeniyetmə gimnastımız H.Abbasov də fərdi proqramda böyüklər arasında yarışıb və 14-cü olub.

Ölkəmizi qadınların yarışında təmsil edən Selcan Maqsudova isə beşinci olub.



# Seçmə mərhələyə məğlubiyyətlə başlayan millimizin növbəti sınağı

Bu gün futbol üzrə Azərbaycan millisi dünya çempionatının seçmə mərhələsi çərçivəsində növbəti oyununa çıxacaq. Yığmamız Bakı Olimpiya Stadionunda Serbiya millisini qəbul edəcək. Bakı vaxtı ilə saat 20:00-da başlayacaq oyun israilli hakimlər briqadasına tapşırılıb. Matçın baş hakimi Roi Reinshreiber olacaq. Ona David Elias Biton və Sagi Metzamber kömək edəcəklər. Dördüncü hakim funksiyasını David Fuxman yerinə yetirəcək.

Qeyd edək ki, millimiz seçmə mərhələ çərçivəsində ilk oyununu martın 24-də səfərdə Portuqaliya yığmasına qarşı keçirib. İtaliyanın Turin şəhərindəki "Yuventus" stadionunda keçirilən oyun Portuqaliya yığmasının 1:0 hesablı qələbəsi ilə başa çatıb. Matçın 36-cı dəqiqəsində qapıçımızın uzaqlaşdırmaq istədiyi top kapitan Maksim Medvedevə dəyərək qapıya daxil olub. Komandaların cəhdlərinə baxmayaraq bu, oyunda vurulan yeganə top olub. Beləliklə, millimiz 0:1 hesabı ilə məğlub olub.

Xatırladaq ki, yığma komandamız seçmə mərhələnin "A" qrupunda Portuqaliya millisi ilə yanaşı, Serbiya, İrlandiya və Lüksemburq komandaları ilə mübarizə aparacaq.

# Qılıncoynadanlarımız Dünya Kubokunun mərhələ yarışında mübarizə aparıblar

Azərbaycanın kişi qılıncoynadanları Rusiyanın Kazan şəhərində keçirilən Dünya Kubokunun mərhələ yarışında çıxış ediblər. Şpaqa üzrə milli komandamız Kənan Əliyev, Xalid Əliyev, Ruslan Həsənov və Barat Quliyevdən ibarət kollektiv komanda yarışında Koreya Respublikasını təmsil edən həmkarlarına 25:45 hesabı ilə məğlub olublar.

Qeyd edək ki, təmsilçilərimiz kişi şpaqaçıların şəxsi yarışlarında da qüvvələrini sınayıblar. Təsnifat mərhələsində 5 qılıncoynadanımız mübarizə aparıb. Şpaqaçılarımızdan Kənan Əliyev və Ruslan Həsənov təsnifat mərhələsinin pley-offuna yüksəlib. Fərrux Səfərov, Barat Quliyev və Xalid Əliyev isə mübarizəni erkən dayandırıb. Pley-offda keçirdiyi ilk görüşdə ABŞ təmsilçisi Adam Zmislovskiyə 15:13 hesabı ilə qalib gələn Kənan növbəti qarşılaşmada Yaponiya şpaqaçısı Ryu Matsumotoya 10:15 hesabı ilə uduzub. Ruslan Həsənov isə pley-off çərçivəsində keçirdiyi ilk görüşdə danimarkalı Konrad Konqstada 12:15 hesabı ilə məğlub olub.



## Atletlərimiz Moskvaya yollanacaqlar

Aprelin 3-11-də Moskvada ağırlıqqaldırma üzrə Avropa çempionatı keçiriləcək. 40 ölkədən 361 idmançının (179 qadın, 182 kişi) iştirak edəcəyi yarışda Azərbaycan yığma komandasının üzvləri də qüvvələrini sınayacaqlar. Yarışda baş məşqçilər Asif Məmmədov (kişilər) və Sərdar Həsənovun (qadınlar) rəhbərliyi altında Boyanka Kostova (59 kq), Əliş Nəzərov (102 kq) və Dadaş Dadaşbəyli (109 kq) çıxış edəcək.

Ölkəmizi hakim qismində beynəlxalq dərəcəli hakim Vahid Nəzərov da təmsil edəcək.

## Badmintonçumuz uzun fasilədən sonra ilk yarışına çıxdı

Azərbaycan badmintonçusu Fransada beynəlxalq turnirdə iştirak edib. Təmsilçimiz Edi Reski Dviçayo uzun fasilədən sonra pandemiya dövründə ilk beynəlxalq turnirə qatılıb. O, Fransanın Orlean şəhərində keçirilən "Orleans Masters 2021"turnirində qüvvəsini sınayıb. Təəssüf ki, idmançımızın çıxışı uğurlu alınmayıb. E.Dviçayo kişi badmintonçuların şəxsi yarışında fransalı Toma Junior Popova 0:2 (15-21, 9-21) hesabı ilə uduzub.

## Dünya çempionatının keçirilmə yeri dəyişdirildi

Dünya Antidopinq Agentliyi (WADA) sambo üzrə dünya çempionatının 2021-ci ilin payızında Daşkənddə keçiriləcəyini təsdiqləyib. Bu barədə Beynəlxalq Sambo Federasiyasının (FIAS) mətbuat xidməti məlumat yayıb.

Qeyd edək ki, bundan əvvəl dünya çempionatının 2021-ci ilin noyabrın 16-18-də Moskvada keçirilməsi planlaşdırılmışdı. Daha sonra Ümumrusiya Sambo Federasiyası FIAS-a və turnirin 2025-ci ilə qədər təxirə salınması xahişi ilə müraciət etmişdi.

Daşkənddə keçiriləcək dünya çempionatı noyabrın 11-15-də baş tutacaq.

31 mart - Azərbaycanlıların soyqırımı günüdür

# Erməni vəhşiliyinin hüdudu yoxdur



*Dilqəm Quliyev, pedaqogika üzrə elmlər doktoru, professor*

***Azərbaycanlılara qarşı ermənilər tərəfindən həyata keçirilən soyqırım siyasəti XX əsrdə də dəfələrlə təkrarlanıb. Bu ağır və qeyri-insani hərəkəti törətməkdə erməni şovinistlərinin son məqsədi nədir? Bu əsas suala cavab vermək üçün tarixi faktlara dönə-dönə müraciət etmək lazımdır. Artıq indi inkaredilməz bir həqiqətdir ki, ermənilər ta qədim zamanlardan tarixin bütün mərhələlərində azərbaycanlılara və türklərə qarşı xəyanət və düşmənçilik mövqeyi tutmuşlar.***

Rus alimi Viktor Semyonovun "Orta əsrlər tarixi" əsərində (Moskva, 1975) qeyd etdiyi kimi, XI-XIII əsrlərdə Roma papalarının çağırışı ilə İsa peyğəmbərin xilas edilməsi pərdəsi altında türklərə qarşı təşkil edilən xaç yürüşlərinin əsas bələdçiləri yenə də ermənilər olmuşdur. Uzun müddət Səfəvi və Osmanlı imperiyaları kimi qüvvətli dövlətlərin təbəələri sayılan bu bədnam kütlə xəyanət üçün fürsət axtarırdı.

Vaxtilə faşistlərin yəhudilərə, Bosniya-Hersoqovinada serblərin, Azərbaycanda isə ermənilərin azərbaycanlılara qarşı soyqırım faciələri dedikdə hər kəsə yaxşı bəlli olan tarixi ardıcıllıq yada düşür: 1905-1907-ci (çar Rusiyası zamanı), 1915-1918-1920-ci (əsasən, Azərbaycan Xalq Cümhuriyyəti dövrü), 1948-1953-cü (SSRİ dövrü, deportasiya), 1988-ci ildən bəri (SSRİ-nin dağılması və müstəqil Azərbaycan Respublikasının mövcud olduğu dövr), 1992-ci (Xocalı və başqa yerlərdə erməni dövləti tərəfindən həyata keçirilən soyqırım). İndi diqqət yetirək: tarixdən məlum olan hansı soyqırım hadisəsində belə bir vəziyyət müşahidə olunur? Demək olar ki, heç birində. Azərbaycan faktiki olaraq soyqırım tarixində ümumi qanunauyğunluqlardan kənara çıxır. Buradan aydın olur ki, zaman, faktiki şərait, siyasi mühit dəyişmiş, lakin ermənilərin azərbaycanlılara qarşı soyqırım siyasəti dəyişməmişdir. Bəzən cəmiyyətdə elə təsəvvür yaranır ki, bu məsələ yalnız tarixçilərin işidir. Əslində, belə deyil, soyqırımla bağlı məsələlər tarixçilərin, psixoloqların, hüquqşünasların, hərbçilərin və bir sıra digər sahələr üzrə mütəxəssislərin iştirakı ilə araşdırılmalıdır. Aşkara çıxan acı həqiqət ondan ibarətdir ki, Azərbaycan iki əsrdə onun varlığına qarşı yönəlmiş soyqırım kimi dəhşətli faciəni dəf etməyə hazır olmamışdır. Soyqırım faciələrinin yeni səhifəsinin yazıldığı bu günlərdə, qanlı qırğınlarla bağlı ümummilli düşüncə necədir? Deməli, soyqırım faktının etirafından yeni bir səviyyəyə keçmək vaxtı çatmışdır.

1813-cü və 1828-ci illərdə imzalanmış Gülüstan və Türkmənçay müqavilələri ilə Azərbaycan xalqının parçalanması və tarixi torpaqlarımızın bölünməsinin əsası qoyulub, sonrakı dövrdə isə həmin torpaqların mənimsənilməsi prosesinə başlanılıb. Qısa müddətdə ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirilib.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, öz havadarlarının himayəsi altında "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Süni ərazi bölgüsü, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması, Azərbaycan xalqına qarşı soyqırımı siyasətinin həyata keçirilməsinə şərait yaradıb. Azərbaycan torpaqlarında "böyük Ermənistan" ideyasını reallaşdırmaq üçün erməni xalqının tarixinin saxtalaşdırılmasına başlanılıb. Azərbaycanın və ümumən, Qafqazın tarixinin təhrif olunması bu fəaliyyətin mühüm tərkib hissəsini təşkil edib.

Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gücləndirilən belə qeyri insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən min illər boyu yaşadıqları tarixi etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

XX əsrin əvvəllərində ermənilər təkcə bu gün Ermənistan adlanan ərazi deyil, Bakı quberniyasının Bakı, Şamaxı Quba şəhəri, Göyçay qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda da vaxtaşırı xalqımıza qarşı qırğınlar, talanlar, yanğınlar, terror və digər zorakılıq aktları həyata keçirmişlər. Erməni faşistləri bu ərazilərdə on minlərlə dinc azərbaycanlı əhalini - qadını, uşağı, qocanı yalnız milli mənsubiyyətlərinə görə vəhşicəsinə qətlə yetirmiş, yaşayış yerlərini talan edərək yandırıb viran qoymuş, xalqımızın milli mədəniyyət abidələrini, məscidləri dağıtmış və yandırmışlar.

XIX əsrin əvvəllərindən başlayaraq ermənilər tarixi Azərbaycan torpaqlarında kütləvi şəkildə məskunlaşdırılmağa başlamış, azərbaycanlılar öz qədim torpaqlarından, ata-baba yurdlarından qovulmuş, onların deportasiyası prosesi məqsədyönlü şəkildə həyata keçirilmişdir.



Tarixin hələ tam açılmamış səhifələrindən biri olan bu soyqırım hadisəsi xalqımıza qarşı dəfələrlə törədilmiş kütləvi qətl kimi qiymətləndirilməlidir. Tarixi faktlar təsdiq edir ki, son iki əsrdə azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş bu soyqırım siyasəti nəticəsində soydaşlarımız qədim Azərbaycan torpağı olan, indi Ermənistan adlandırılan öz doğma torpaqlarından didərgin salınmışlar.



1918-ci ildə Bakıda və Azərbaycanın digər bölgələrində ermənilərin törətdikləri qırğınlardan 103 il ötməsinə baxmayaraq, bu vəhşiliklər xalqın qan yaddaşında əbədi iz buraxmışdır. Ötən əsrin əvvəllərindən başlayaraq ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri aramsız soyqırım və deportasiya siyasəti 1918-1920-ci illərdə xüsusən genişlənmiş və Azərbaycan xalqının yer üzündən tam silmək kimi iyrənc niyyətlərinə üzə çıxarmışdır. Həmin illərdə ermənilərin Azərbaycanda törətdikləri milli qırğın haqqında bizə çatan tarixi sənədlərdəki faktlar Şamaxıda, Qubada, Muğanda, Zəngəzur qəzasında, Qarabağda, İrəvan quberniyasında və ölkənin digər ərazilərində azərbaycanlıların amansızlıqla qətlə yetirildiyini, şəhər və kəndləri talan edilərək dağıdıldığını sübut edir.

Azərbaycanın ayrı-ayrı bölgələrində olduğu kimi, Bakıda da həmin illərdə azərbaycanlıların soyqırımı həyata keçirilmiş və şəhər erməni silahlı dəstələri tərəfindən dağıdılmışdır. 1918-ci ilin mart ayının son üç günündə təkcə Bakıda otuz mindən çox əhalini erməni vəhşiləri xüsusi amansızlıqla qətlə yetirmişlər. Həmin ildə erməni bandaları insanlara qarşı vəhşi amansızlıq etdikləri kimi, mədəniyyət abidələrini və tarixi abidələri də vəhşicəsinə dağıdır, məscidləri yandırır, memarlıq incisi sayılan binaları yerlə-yeksan edirdilər. Mart qırğını haqqında olan mənbələrdə göstərilir ki, ermənilər bir çox qədim binaları, o cümlədən Cümə məscidini, İsmailiyyə binasına top atəşinə tutaraq dağıtmışlar. Həmin dövrü əhatə edən, 1918-ci ildə Bakının dağıdılmasını əks etdirən tarixi foto-şəkillər də tarixçilərin yazdıqlarını əyani şəkildə təsdiqləyir.

1918-ci ilin mart soyqırımı zamanı Bakı şəhərində ermənilər meyidləri odalova bürünmüş evlərə, dənizə və quyulara atırdılar ki, cinayətin izini itirsinlər.

Bakının şəhər camaatından 400 milyon manatlıq daş-qaş və əmlak müsadirə olunmuşdu. Xalqın bir çox ziyarətgahları və tarixi abidələri dağıdılıb yerlə-yeksan edilmişdir. Uzaqvuran topla Təzəpir məscidi zədələnmişdi. Daşnaklar Bakıda dünya memarlığının incilərindən sayılan "İsmailiyyə" binasına od vurub yandırmışdılar. Bakıda baş vermiş faciəli hadisələr şəhərə olduqca böyük ziyan vurmuşdu.

Qədim Azərbaycan şəhəri Şamaxı da dəhşətli talan və vəhşiliklərə məruz qalmışdı. Şamaxı şəhəri və Şamaxı qəzası üzrə ermənilərin törətdikləri vəhşiliklər haqqında 7 cild, 925 vərəqdən ibarət materiallar toplanıb. Şamaxının müsəlmanlar yaşayan hissəsinin hamısına od vurulmuşdu, 13 məhəllə məscidi və məşhur müqəddəs ocaq Cümə məscidi yandırılmışdı. Erməni quldurları minlərlə dinc adamı qətlə yetirmişdi. Şamaxı qəzasının 53 kəndində ermənilər 8077 azərbaycanlını qətlə yetirmişdilər. Onlardan 4190 nəfəri kişi, 2560 nəfəri qadın və 1277 nəfəri uşaqlar olmuşdur. Bu kəndlərə dəyən ümumi maddi zərər o dövrün qiymətləri ilə 339,8 milyon manat idi.

Əvvəlcədən qurulmuş plana görə daşnak-bolşevik qoşunu Şamaxını işğal etdikdən sonra Quba qəzasına daxil olmalı idi. S.Şaumyan Cənubi Qafqazda böyük Ermənistan dövləti yaratmaq üçün bütün imkanlardan istifadə edirdi ki, təki Azərbaycan deyilən dövlət yaranmasın.

Ermənilər bolşeviklərin köməyi ilə Quba qəzasında üç dəfə qırğın törətmişlər. Qubaya hücum edənlər içərisində özünü bolşevik kimi qələmə verən və 2 min əsgərə başçılıq edən David Kelovandilidən başqa, bolşevik Stiqua da olmuşdu. Onun dəstəsində min əsgər olub.

Ermənilərin vəhşilikləri nəticəsində 1918-ci ilin ilk 5 ayı ərzində üstüstə 16 mindən çox insan məhv edilmişdir. Ayrı-ayrı mənbələrə və şahidlərin dediklərinə əsasən, qırğın zamanı 12 minədək ləzgi, 4 mindən çox azəri türkü öldürülmüşdü. 1918-ci ilin qırğınları zamanı daşnak-bolşevik birləşmələri Quba qəzasıda 162 kəndi dağıtmışdılar ki, bunlardan 35-i hazırda mövcud deyildir.

Daşnak-bolşevik birləşmələri nəinki Quba qəzasında, hətta Cənubi Dağıstanda, Bakıdan Dərbəndə kimi böyük bir ərazidə müsəlmanların soyqırımını həyata keçirmək niyyətində idilər. Azərbaycanın tarixindən məlumdur ki,1918-ci ilin yazından başlayaraq, Ermənistanda (Qərbi Azərbaycanda) yaşayan azərbaycanlılar da erməni bolşevik dəstələri tərəfindən soyqırıma məruz qaldılar. Erməni cəlladları "Böyük Ermənistan" yaratmaq üçün ilk növbədə Qərbi Azərbaycandakı müsəlman əhalisini buradan çıxarmağa və bu məkrli planın reallaşmasına çalışırdılar. Təkcə aprelin sonunda bu ərazidə dağıdılmış müsəlman kəndlərinin sayı 199-a çatırdı.

1918-ci ilin yazında Bakı şəhərində və Azərbaycan qəzalarında daşnakbolşevik birləşmələrinin türk müsəlman əhalisinə qarşı törətdikləri vəhşiliklər istər hüquqi baxımdan, istərsə də siyasi cəhətdən soyqırım kimi qiymətləndirilməlidir.

Ümummilli lider Heydər Əliyev 31 mart - "Azərbaycanlıların Soyqırımı Günü" ilə əlaqədar deyib: "Xalqımıza qarşı törədilmiş soyqırımı haqqında həqiqətləri real faktlar, dəlillər əsasında dünya dövlətlərinə, nüfuzlu beynəlxalq təşkilatlara çatdırmaq, saxta erməni təbliğatı nəticəsində formalaşmış yalan təsəvvürləri dəyişdirmək, ona hüquqi-siyasi qiymət verdirmək nə qədər çətin olsa da, şərəfli və müqəddəs bir iş kimi bu gün də, gələcəkdə də davam etdirilməlidir. Bu, soyqırımı qurbanlarının xatirəsi qarşısında indiki nəslin müqəddəs borcudur".

Son illər bu sahədə aparılmış araşdırmalar sayəsində çoxlu sayda yeni faktlar və sənədlər toplanıb. Quba şəhərində tapılan kütləvi məzarlıq bu faciənin qanlı epizodlarından biridir. Quba soyqırımı məzarlığı 2007-ci il aprelin 1-də ərazidə torpaq işləri görülərkən aşkar edilib. 2009-cu ildə Nazirlər Kabinetinin sərəncamı ilə "Quba rayonunda kütləvi qətl qurbanlarının xatirəsinin əbədiləşdirilməsinə dair tədbirlər planı" təsdiq edilib, aşkar olunmuş kütləvi məzarlığın yerləşdiyi ərazidə monumental xatirə kompleksinin ucaldılması və abadlıq işlərinin aparılması qərara alınıb. 2007-ci ilin iyulundan etibarən Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən kütləvi məzarlıqda geniş tədqiqat işlərinə başlanılıb, 2008-ci ilin sentyabrında isə tədqiqat işləri başa çatdırılıb. Tədqiqat nəticəsində məzarlığın 1918-ci ildə ermənilərin yerli dinc əhaliyə qarşı törətdiyi soyqırımı ilə bağlı olduğu müəyyən edilib. Tədqiqat işlərinin nəticəsi olaraq məzarlıqda müxtəlif yaş qruplarına aid 400-dən çox insan cəsədinin qalıqları aşkar edilib. Onlardan 50-dən çoxu uşaqlara,100-dən çoxu qadınlara, qalanları isə əsasən yaşlı kişilərə aiddir. Müəyyən edilib ki, məzarlıqda azərbaycanlılarla bərabər, Qubada yaşayan ləzgi, yəhudi, tat və digər etnik qrupların nümayəndələri də amansızcasına qətlə yetirilərək basdırılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2018-ci il yanvarın 18-də "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Sərəncam imzalayıb. Sərəncamda deyilir: "Üzə çıxmış tarixi faktlar 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübut etmişdir".

Ötən əsrdə dörd dəfə - 1905-1906, 1918-1920, 1948-1953 və 1988-1989-cu illərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırım və deportasiya siyasəti bu gün özünü Dağlıq Qarabağla bağlı məlum hadisələrdə büruzə verir, həm də onu göstərir ki, ermənilərin xalqımıza olan tarixi düşmənçilik münasibəti dəyişməyib. Ancaq Azərbaycanın beynəlxalq aləmdə möhkəmlənən mövqeyi və real beynəlxalq vəziyyət ötən əsrdən təmamilə fərqli olduğuna görə yəqin ki, Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həlli, erməni işğalçılarının torpaqlarımızdan çıxarılması, daşnak ideyalarının davamçılarının yerində oturdulması mümkün oldu.

Azərbaycan xalqı və dövləti soyqırımı qurbanlarının xatirəsini daim əziz tutur, bütün dünyanı erməni vandalizminin iç üzünü görmək üçün bu tarixi hadisələrdən ibrət götürməyə çağırır.

Futbol

## “Qarabağ” son 10 ilin ən yaxşı klubları sırasında



Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyası son 10 ilin ən yaxşı klublarının siyahısını açıqlayıb.

2011-2020-ci ilin nəticələrini əhatə edən siyahıda 140 klub yer alıb. Azərbaycandan siyahıda yalnız bir klub - “Qarabağ” var. Ağdam təmsilçisi 1149,5 xalla 98-ci yerdə qərarlaşıb.

Ağdam təmsilçisi siyahıda ÇSKA (Moskva, Rusiya), “Atalanta” (İtaliya), “Qalatasaray” (Türkiyə), “Monako”, “Lill” (hər ikisi Fransa), “Everton” (İngiltərə) kimi klubları qabaqlayır.



## Yığmamız yoldaşlıq oyununda məğlub oldu



Futbol üzrə Azərbaycan millisi beynəlxalq yoldaşlıq oyununda qüvvəsini sınayıb. Canni De Byazinin baş məşqçi olduğu komanda Qətər yığması ilə üz-üzə gəlib.

Bu, millinin 2021-ci ildəki ilk yoldaşlıq görüşü olub. Macarıstanın Debretsen şəhərindəki “Nadyerdeyi” stadionundakı qarşılaşma rəqibin 2:1 hesablı qələbəsi ilə başa çatıb.

16-cı dəqiqədə ərəb futbolçu Məhəmməd Vaad cərimə meydançasında Anatoli Nuriyevə qarşı kobud oynayıb. Slovakiyalı baş hakim İvan Krujlyak Qətərin qapısına penalti təyin edib. Ramil Şeydayev 11 metrlik cərimə zərbəsini dəqiq yerinə yetirib. Beləliklə, komanda 6 görüşdən sonra qol vurmağa müvəffəq olub.

54-cü dəqiqədə isə referi Sertan Taşqının rəqibi itələdiyini əsas gətirərək şübhəli penalti təyin edib. Hassan Əl Haydos dəqiq zərbə ilə hesabı bərabərləşdirib. Hücumçu 3 dəqiqə sonra uzaq məsafədən baxımlı qola imza ataraq komandasını önə keçirib.

Görüş millinin iki üzvü üçün əlamətdar olub. “Qarabağ”ın qapıçısı Emil Balayev komandanı ilk dəfə kapitan kimi meydana çıxarıb. “Zirə”nin futbolçusu Sertan Taşqın isə yığmada debüt edib.

## İstanbulda keçiriləcək final üçün yenilik

UEFA rəhbərliyi Çempionlar Liqasının bu mövsüm İstanbulda keçiriləcək finalında azı 9 min azarkeşin iştirakını təmin etmək niyyətindədir. Hazırda hər iki komandanın fanatlarının həlledici oyunu izləyə bilməsi üçün müxtəlif təkliflər planı hazırlanır.




Buna misal olaraq biletlərin onlayn şəkildə satılması üçün ağıllı mobil sistemin hazırlanmasıdır.

Qeyd edək ki, 2020-ci ildə ÇL finalının İstanbulda təşkil edilməsi planlaşdırılsa da, sonda koronavirus pandemiyası səbəbindən həlledici oyun Portuqaliyanın paytaxtı Lissabonda keçirildi.

## Çempionlar Liqası: Yeni format nə vaxt təsdiqlənəcək?

UEFA Çempionlar Liqasının yeni formatının təsdiqlənəcəyi tarix müəyyənləşib. UEFA İcraiyyə Komitəsi martın 31-də turnirdə bəzi islahatlar edildiyini açıqlayacaq. Yeni format 2024-cü ildən tətbiq ediləcək.

Qeyd edək ki, Çempionlar Liqasındakı yeni formata əsasən, komanda sayı 32-dən 36-dək artırılacaq. Komandaların qruplara bölünməsinin ləğvi təklif edilir. Əvəzində turnir İsveçrə sistemi ilə oynanılacaq. Beləliklə, hər klub fərqli rəqiblərə qarşı ən azı 10 matç (5 evdə, 5 səfərdə) keçirəcək. Bundan sonra isə turnir cədvəli formalaşacaq. İlk 8 klub birbaşa 1/8 finala yüksələcək. Digər komandalar isə növbəti mərhələyə yüksəlmək üçün yenidən mübarizə aparacaqlar.

## FİFA transferlərdə yaş limitini dəyişir

Gənc futbolçuların transferi ilə bağlı yaş limiti dəyişdirilir. Bunu Braziliya Futbol Konfederasiyanın prezidenti Rojerio Kabolko açıqlayıb.

O, A və B seriyası klubları ilə görüşündə bildirib ki, FİFA oyunçuların Avropa klublarına satışı və keçidi üçün yaş limitini 16-ya endirəcək. Hazırkı qaydalara əsasən 18 yaşadək oyunçular istisna hallarda azad agent və ya icarə yolu ilə ölkə xaricinə transfer oluna bilər.

Karolko FİFA-nın yeniliyinin tezliklə qüvvəyə minəcəyini, lakin konfederasiyanın buna qarşı mübarizə aparacağını da qeyd edib. Çünki belə addım Braziliya klublarına ciddi maliyyə zərbəsi vuracaq. Avropa klubları cənubi amerikalı istedadları daha gənc, yəni nisbətən ucuz qiymətə heyətinə qatacaq.

Qarabağ idmanı

## Uğurları ilə yaddaşlardan silinməyən güləşçi



Azərbaycanın incisi, Qarabağın mirvarisi, döyünən ürəyi olan Şuşa şəhəri təkcə tarixi mədəniyyət abidələri ilə deyil, eyni zamanda idmançıları ilə də seçilir. Burada güləş, voleybol, həndbol, futbol, sambo, şahmat növləri inkişaf etmişdi. Təsadüfi deyil ki, Şuşa idmançıları ölkə və vilayət birinciliklərində yer tutublar. Şuşa torpağının yetişdirdiyi idmançılar arasında öz istedadı ilə seçilən idmançılardan biri də Süleyman Novruzovdur. S.Novruzov 1938-ci ilin iyun ayının 9-da Şuşa şəhərində ziyalı ailəsində anadan olub. 1945-ci ildə Şuşa şəhərindəki 1 saylı orta məktəbin birinci sinfinə gedib. 1956-cı ildə həmin məktəbin X sinfini yüksək qiymətlərlə bitirib.

Süleyman Novruzov hələ məktəbdə oxuyanda rəssamlığa, musiqiyə və idmana böyük maraq göstərirdi. O, gözəl rəsmlər çəkir, tarda ürəyəyatan mahnılar ifa edərdi. Futbol, voleybol, atletika, şahmat və güləş idman növləri ilə məşğul olmağı xoşlayırdı. (Eyni zamanda Şuşa musiqi məktəbinin tar sinfində oxumuşdur). Ən çox güləş idman növünü sevirdi. O, tanınmış məşqçi İsmayıl İsmayılovun keçdiyi güləş dərnəyinə üzv yazıldı. Şəraiti olmayan otaqda yeniyetmə və gənclərlə məşq keçən İsmayıl müəllim güləşin ən çətin sirlərini, fəndlərini uşaqlara böyük həvəslə başa salırdı. Tələbələri İsmayıl müəllimin tapşırıqlarını həvəslə yerinə yetirir, fiziki, taktiki hərəkətlərə daha ciddi surətdə yanaşır və qarşıdakı yarışlara hazırlaşırdılar. Əsas yarışlar şəhər, rayon və vilayət üzrə olurdu. Güləşçilərdən Qəmbər Rəhimov, Qubad Xudaverdiyev, Rəhman Teymurov, Süleyman Novruzov, Böyükkişi Səfixanov, Tariyel Kazımov, Mənsur Məmmədov, Zakir Babayev və başqaları rayon, vilayət çempionluğunadək yüksəliblər.

Süleyman Novruzovun idman sahəsindəki fəaliyyəti ürəkaçandır. O, tələbəlik illərində “Ehtiyat Əmək Qüvvələri” cəmiyyətində təcrübəli məşqçilərin rəhbərliyi altında yunan-Roma güləşi ilə məşğul olub. Süleyman bir güləşçi kimi məşqçilərin diqqətini cəlb etmişdi və onun görkəmli bir güləşçi olmasına şübhə etmirdilər. O, bir sıra yarışlarda iştirak edərək, yüksək nəticələr əldə edib. Qısa bir vaxt ərzində Süleyman Ümumittifaq Vahid İdman Təsnifatının normalarını yerinə yetirərək, I dərəcəli güləşçi adına layiq görülüb. Süleyman Bakı birinciliklərində böyük həvəslə çıxış edir və həmişə də yüksək yerlər uğrunda müvəffəqiyyətlə mübarizə aparırdı. O, güləş üzrə ustalığa namizəd və idman ustaları ilə, o cümlədən I dərəcəli güləşçilərlə Nadir Mikayılzadə ilə (“Dinamo”), Namiq Əliyevlə, Zahid Qaragözovla (“Məhsul”), Sahib Əliyevlə (“Dinamo”) güləşib və “Ehtiyat Əmək Qüvvələri” cəmiyyətinin idman şərəfini layiqincə qoruyub.

Lakin Süleyman Novruzovun iş fəaliyyəti və ailə vəziyyəti imkan vermir ki, o, güləşlə müntəzəm məşğul olsun. Süleymanın qarşısında bir məsələ durmuşdu: “Hansı peşənin sahibi olmaq? Tikinti ya güləşçi?” Süleyman Novruzov çox götür-qoydan sonra öz sevimli peşəsi tikintinin ardınca getməli olur. Süleyman Novruzovun əmək və idman fəaliyyəti ürəkaçan və sevindirici olub. O, 1956-cı ildə Azərbaycan Dövlət Politexnik İnstitunun tikinti şöbəsinə daxil olub. Lakin o, qeydiyyatdan çıxmaq üçün Şuşaya qayıdıb və yenidən Bakıya gəlib instituta qeydiyyata düşmək istəyir. İnstitutun dekanı ona bildirib ki, rəhbərlik səni inşaat şöbəsindən su və meliorasiya şöbəsinə dəyişib. “Nə qədər çalışdımsa, münkün olmadı. Rektorluğa ərizə ilə müraciət etdim. Cavabında isə inşaat bölməsində boş yerimiz yoxdur, dedilər. Ən çox arzuladığım inşaat fakultəsinə qəbul etmədikləri üçün kor-peşiman geri qayıtdım. Mənim bu işimə inananlar da oldu, inanmayanlar da. Şuşa təmir tikinti idarəsində fəhlə işləməyə başladım. İki ay keçməmiş atamın dostu Şuşa Kommunal İdarəsinin müdiri Müzəffər Süleymanov bildirdi ki, məktub almışıq, Bakı Kommunal Tikinti Texnikumuna iki nəfər orta təhsilli oğlan lazımdır. Atam bu sözləri mənə deyəndə etiraz etmədim, razılıq verdim”, - deyə S.Novruzov bildirir.

Süleyman Novruzov 1958-ci ildə Bakı Kommunal Tikinti Texnikumunu fərqlənmə diplomu ilə başa vurmuşdur. O, işdən ayrılmadan təhsilini Rostov şəhərinin “Dəmir Yolu Mühəndisləri” İnstitutunda davam etdirmiş və 1973-cü ildə həmin institutu yüksək qiymətlərlə, qiyabi yolla bitirmişdir.

Süleyman Novruzov əmək fəaliyyətinə 1958-ci ildə Azərbaycan Dövlət Dəmiryolu Tikinti Trestinin Bakı şəhərində yerləşən tikinti idarəsində başlamış, normalaşdırıcı, iş ustası və iş icraçısı işləmişdir.1972-1976-cı illərdə trestin 1 saylı tikinti idarəsində baş icraçı, sahə rəisi, 1976-1988-ci illərdə 404 saylı tikinti idarəsinin rəisi, 1988-1990-cı illərdə “Azərnəqliyyat” Yol Tikinti Trestinin 835-saylı tikinti idarəsinin rəisi, 1990-1997-ci illərdə Azərbaycan Dövlət Dəmiryolu Tikinti Trestinin Baş direktoru, 1997-2002-ci illərdə həmin trestin inşaat konstruksiyaları zavodunun direktor müavini və baş mühəndisi, 2002-2004-cü illərdə “Azərnəqliyyat” Yol Tikinti Səhmdar Cəmiyyətinin baş mühəndisi vəzifələrində çalışıb. 2004-cü ildən həmin cəmiyyətin sədri vəzifəsində işləyib.

Süleyman Novruzovun əməyi dövlət tərəfindən yüksək qiymətləndirilib və o, “Şərəf nişanı” ordeni (1974), “Əmək veteranı”, “Əməkdə fərqlənməyə görə” medalları ilə (1985), “Fəxri dəmiryolçu” (1996), SSRİ Dəmiryol Nəqliyyatının inkişafında fəal iştirakına görə “Dəmir yollarının 150-illiyi” (1987) nişanları ilə və bir çox fəxri fərmanlarla təltif edilib.

Süleyman Novruzovun nümunəvi ailəsi var. Onun 3 övladı, 8 nəvəsi, 5 nəticəsi var. Böyük oğlu Sabunçu rayon poliklinikasının baş həkimi, ikinci oğlu isə Daxili İşlər Nazirliyi daxili qoşunların rəis müavini, orkestrin baş drijoru, eyni zamanda pionist, bəstəkar və Azərbaycan Respublikasının əməkdar artistidir. Qızı isə tibb işçisidir.

Süleyman Novruzov 2016-cı il avqust ayının 23-də ömrünün 79-cu ilində dünyasını dəyişib. Gözəl ziyalı və nəcib insan olan Süleyman Novruzovun işıqlı surəti və parlaq xatirəsi həmyerlilərinin, idmançı və iş yoldaşlarının, onu yaxından tanıyanların qəlbində həmişə yaşayacaqdır.

*Əbülqasım Novruzov,*
*Şuşa Uşaq Gənclər İdman Məktəbinin direktoru*



# Xoş niyyətlərlə yaşanan halal ömür

***Həyatda elə insanlar var ki, onları az müddətdə tanımaq, xarakterinə, işgüzar keyfiyyətlərinə bələd olmaq mümkün olur. Elə adamlar da olur ki, illər keçsə də, uzun müddət ünsiyyətdə olsan belə, insani cəhətlərini tam öyrənə bilmirsən. Yaxından tanıdığım və hörmət etdiyim Bayram Məmmədov əvvəlinci adamlardandır.***

***Dəqiq tarixi yadımda deyil. Onunla Müdafiə Nazirliyi xəttilə keçirilən tədbirlərdən birində rastlaşmışdım. İxtisasca jurnalist olduğum üçün mən "Azərbaycan Ordusu" qəzetinə cəbhə bölgəsindən təzəlikcə dəyişdirilmişdim. Qəzet tamamilə fərqli bir mühit idi, yeni abhava vardı. Silahlı Qüvvələrimizdə atəşkəsdən sonra çox şey dəyişməkdəydi. Cəbhədən gəldiyimə və tez-tez hərbi hissələrimizdə, hərbi təhsil müəssisələrində olduğuma görə baş verən pozitiv dəyişiklikləri, bəlkə, daha çox müqayisə edib dəyərləndirmək imkanı yaranmışdı. Ümumi yeniliklər barədə tez-tez qəzetdə yazılarla çıxış edirdik.***

Ordulararası əlaqə dövlətlərarası əlaqənin tərkib hissələrindəndir. Ordulararası əlaqələr qabaqcıl təcrübənin mübadiləsi, döyüş hazırlığı sahəsində dünyanın aparıcı dövlətlərinin silahlı qüvvələrindən öyrənmək, döyüş hazırlığını artırmaq deməkdir. Azərbaycan NATO-nun Sülh Naminə Tərəfdaşlıq Proqramına qoşulmuşdu və beynəlxalq əlaqələri tədricən genişlənməkdəydi. Tərəfdaşlıq proqramı çərçivəsində döyüş sənədlərinin işlənib yeni qaydalarla hazırlanması, hərbi təlim və tədrisdə müasir standartların tətbiqi, sülhməramlı əməliyyatlarda iştirak və bu sahədə dünya təcrübəsinin öyrənilməsi, müxtəlif kurs və seminarların təşkili ordumuz üçün həm yeni, həm də önəmli bir sahə idi.

O zaman beynəlxalq əməkdaşlıq sahəsində ordumuzu təmsil edə biləcək hazırlıqlı kadrlar, xarici dilləri peşəkar səviyyədə bilən, hərbi sənədləri qüsursuz işləməyi bacaran zabitlərimiz çatışmırdı; gənc ordumuz beynəlxalq əməkdaşlıq sahəsində ilk addımlarını atırdı.

Sülh Naminə Tərəfdaşlıq proqramı çərçivəsində ölkəmizdə keçirilən tədbirə göndərilmişdim. Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin qərargah binasında keçirilən dinləmələr zamanı Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin Sülh Naminə Tərəfdaşlıq proqramının həyata keçirilməsi bölməsinin rəisi polkovnik-leytenant Bayram Məmmədovla orda tanış oldum.

Xarici ölkələrdən xeyli hərbi mütəxəssislərin iştirak etdiyi tədbirdə qonaqların qarşılanması, yerləşdirilməsi, tədbirin yüksək səviyyədə keçirilməsi, iştirakçıların asudə vaxtının səmərəli təşkilini təmin edilməsi o qədər də asan iş deyildi. Bayram müəllim ingilis dilində qonaqlarla sərbəst ünsiyyət qururdu, dinləmələrin protokola uyğun təşkilini təmin edirdi, Azərbaycan Ordusunu təmsil edən zabitlərə səbr və təmkinlə kömək göstərirdi. İşi çox olsa da mətbuat nümayəndələrini də mehribanlıqla qarşılayırdı, mətbuat üçün dövlətçilik baxımından lazım olan informasiyalar verirdi.

Bayram müəllimlə Müdafiə Nazirliyinin xəttilə keçirilən beynəlxalq tədbirlərdə sonralar dəfələrlə qarşılaşmış, ünsiyyətdə olmuş, qəzet üçün yazılar hazırlamışdım. Polkovnik-leytenant Bayram Məmmədovun cəlb olunduğu bütün tədbilərdə bu ovqatla iştirak edirdik. Yəni Bayram müəllimin mətbuatla işləməsi, jurnalistlərin bu və ya digər suallarına peşəkarcasına cavab verməsi bizə könül xoşluğu verirdi. O, NATO ordularında CİMİC deyilən sivil-mülki əlaqələrə, mətbuatla, qoşunların yerləşdiyi ərazilərdə yerli əhali ilə münasibətləri normal qurmaq məsələsinə xüsusi diqqət yetirirdi.

Bayram müəllim 1978-ci ildə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun ingilis dili fakültəsini müvəffəqiyyətlə bitirib. Sonralar, 1991-ci ildə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunu, (1991-ci ildə) və ABŞ Müdafiə Nazirliyinin Hərbi Dil İnstitutunu (2009-cu ildə) fərqlənmə diplomu ilə bitirib.

Ermənistan Dağlıq Qarabağda və ətraf ərazilərdə azərbaycanlılara qarşı vəhşiliklər törədir, soydaşlarımızı ərazilərimizdən sıxışdırıb çıxarmağa çalışırdı. Düşmən ölkəmizə qarşı elan etmədən müharibəyə başlamışdı. Onda Zəngilan rayonu Xalq Deputatları Soveti İcraiyyə Komitəsi sədrinin müavini Bayram Məmmədov da 10 noyabr 1991-ci ildə könlünün istəyi və vətənpərvərlik duyğuları ilə qələmini silahı ilə əvəzlədi. Zəngilanı müdafiə etmək üçün yaradılan özünümüdafiə taboruna komandir təyin edilmişdi. Tabor Ermənistan ordusunun hərbi birləşmələrinə qarşı mərdliklə mübarizə aparırdı...

Döyüşən hərbi hissələrimizin komanda heyətində müxtəlif vəzifələrdə xidmət etmiş Bayram Məmmədov sonradan Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinə dəyişdirilmişdi. Savadı, bacarığı, yüksək intizamı və tələbkarlığı ilə yeni xidmət yerində də rəğbət qazandı. Polkovnik-leytenant Bayram Məmmədovun iştirakı və təşkilatçılığı ilə Bakı şəhərində 100-dən artıq beynəlxalq tədbir yüksək səviyyədə hazırlanıb keçirilmiş, müxtəlif ölkələrdən paytaxtımıza gəlmiş hərbi nümayəndələr həm Azərbaycan, həm də Silahlı Qüvvələrimiz barədə xoş təəssüratlarla ayrılıblar.

Bayram müəllimin Müdafiə Nazirliyi sistemində sonrakı fəaliyyətini elm və tədrisə həsr etmişdir. Silahlı Qüvvələrin Təlim-Tədris Mərkəzinin Xarici Dillər Kafedrasının baş müəllimi, Hərbi Akademiyanın Xarici Dillər Kafedrasının rəis müavini-baş müəllim, Milli Təhlükəsizlik və Humanitar Elmlər Kafedrasının xarici dillər silsiləsinin rəisi, Hərbi Akademiyanın Xarici Dil və Tərəfdaşlıq Mərkəzinin xarici dillər bölməsinin rəisi, Xarici Dil və Tərəfdaşlıq Mərkəzinin Roman-german dilləri bölməsinin baş müəllimi vəzifələrində çalışmış, Azərbaycan zabitlərinin xarici dilləri yetərincə mənimsəməsi üçün əlindən gələni əsirgəməmişdir.

Ölkəmizdə 2004-cü ildə hərbçilərin cüdo üzrə 30-cu, 2006-cı ildə güləş üzrə 24-cü, 2008-ci ildə boks üzrə 52-ci dünya çempionatları, 2010-cu ildə Beynəlxalq Hərbi İdman Şurasının Avropa Konfransı, 2013-cü ildə Hərbçilərin futbol üzrə 1-ci dünya kuboku kimi mötəbər tədbirlərin hazırlanıb keçirilməsində də Bayram Məmmədovun zəhməti az olmayıb.

Geniş dünyagörüşə malik olan Bayram müəllim idmana da bağlı adamdır. Ölkəmiz üçün yeni olan Hapkido idmanının inkişafına öz töhfəsini verməkdədir. Azərbaycan Respublikası Hapkido Federasiyasının vitse-prezidentidir. Hapkido üzrə idmançılarımız dünya səviyyəli müxtəlif yarışlarda dəfələrlə mükafatlar qazanıb, Azərbaycan Respublikasının bayrağını dalğalandırıb. Nümunəvi xidmətinə görə Bayram Məmmədov Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən dəfələrlə medal, fəxri fərman və digər mükafatlara layiq görülüb. Hərbi tədris sahəsində qazandığı nailiyyətlərə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 24 iyun 2015-ci il tarixli sərəncamı ilə "Əməkdar müəllim" fəxri adına layiq görülüb.

Bayram müəllim hal-hazırda Azərbaycan Respublikasının Milli Məclisində də gənclik enerjisi, qaynarlığı ilə çalışır, ictimai-siyasi fəaliyyətini təcrübəli və peşəkar bir mütəxəssis kimi layiqincə, uğurla davam etdirir. O, həm də bədii təfəkkürünü sözlərə, məqalələrə çevirir. Oxunaqlı, düşündürücü məqalələr yazır. İmzasına nüfuzlu mətbuat orqanlarında, internet portallarında tez-tez rast gəlmək olur. Bayram müəllim deyir ki, yaşımın bu çağında işğaldan azad olunmuş torpaqlarımızda bərpa işlərində yaxından iştirak etmək, dövlət bayrağımızın o ərazilərdə dalğalanmasına qürurla baxmaq, doğulduğum Zəngilan rayonunun Canbar kəndində ermənilərin dağıtdığı ata evimizi bərpa etmək ən ülvi diləyimdir. Bu niyyət də onun vətənpərvərliyini ifadə edir.

Silahlı Qüvvələrimizin formalaşmasında özünəməxsus xidmətləri olmuş Bayram Məmmədov həmişə xoş niyyətlərlə halal bir ömür yaşayıb. Xoş niyyətlilər isə ehtiramla əhatələnir, sevilir...

***Əbülfət MƏHƏRRƏMLİ***
***hərbi jurnalist, ehtiyatda olan mayor***

Ş a h m a t

## Zəka sahibimiz Monteneqroda uğurla çıxış edib

Monteneqroda təşkil olunan şahmat festivalı çərçivəsində keçirilən daha bir turnirdə Azərbaycan təmsilçisi Aydın Süleymanlı uğurla çıxış edib. Yarışda iştirak edən şahmatçımız 9 turdan 6,5 xal toplayaraq ikinci yeri tutub. Turnirin qalibi 8,5 xalla Türkiyə şahmatçısı Vahap Şanal olub.



Qeyd edək ki, şahmatçımız festival çərçivəsində bundan əvvəl keçirilmiş qrossmeyster normalı yarışda 5,5 xal toplayaraq üçüncü yeri tutub.

## "Odlar yurdu" və "Təhsil idman" pley-offa vəsiqə qazandı

Klublar arasında start götürən şahmat üzrə onlayn Avropa kubokunda təsnifat mərhələsinə yekun vurulub. Bu mərhələdə Azərbaycanı 5 komanda - "Odlar Yurdu", "Vüqar Həşimov", "Təhsil idman", "Gənclik" və "Nakhchivan - Noah's Land" komandaları təmsil edib və onlardan ikisi pley-offa vəsiqə qazanıb. Komandalarımızdan E qrupunda mübarizə aparan "Odlar Yurdu" (Şəhriyar Məmmədyarov, Qədir Hüseynov, Nicat Abasov, Vasif Durarbəyli, Eltac Səfərli, Cahangir Ağarəhimov) qələbələr seriyasını sona kimi davam etdirərək 18 xalla qrup qalibi olub və növbəti mərhələyə adlayıb.

Daha bir komandamız - ilk günün oyunlarını elə də uğurlu keçirməyən "Təhsil idman" (Misrətdin İsgəndərov, Rəsul İbrahimov, Məhəmməd Muradlı, Günay Məmmədzadə, İsmayıl Şahəliyev, Nail Bəşirli) son 5 turu yüksək nəticə ilə başa vuraraq 15 xalla I qrupda ikinci yeri tutub və növbəti mərhələdə yarışmaq hüququ əldə edib.

Digər komandalarımız - "Vüqar Həşimov" (Rauf Məmmədov, Vüqar Əsədli, Aydın Süleymanlı, Əhməd Əhmədzadə, Ülvi Sadıqov) H qrupunda 13 xalla, "Gənclik" (Abdulla Qədimbəyli, Murad İbrahimli, Xəzər Babazadə, Atilla Eynullayev, Read Səmədov, Cahandar Azadəliyev) D qrupunda 11 xalla 3-cü, "Nakhchivan - Noah's Land" (Urfan Semdimalıyev, Talıb Babayev, Pərviz Qasımov, Toğrul Həsənzadə, Sadiq Məmmədov və Sadiq Qarayev) isə G qrupunda 6 xalla 7-ci yeri tutub.

## "Champions Chess Tour" seriyasının dördüncü mərhələsinin qalibi müəyyənləşdi

Aniş Qiri "Champions Chess Tour" onlayn şahmat seriyasının dördüncü mərhələsinin qalibi olub. Dünya çempionu Maqnus Karlsenin təşkil etdiyi nüfuzlu yarışın final mərhələsində Niderland təmsilçisi Aniş Qiri Rusiya şahmatçısı Yan Nepomnyaşinin üzərində qələbə qazanaraq fəxri kürsünün ən yüksək zirvəsində qərarlaşıb. Turnirdə üçüncü yeri isə norveçli dünya çempionu Maqnus Karlsen tutub. O, həlledici qarşılaşmada ABŞ təmsilçisi Uesli So üzərində qələbə qazanıb. Şahmatçılarımız Şəhriyar Məmmədyarov və Teymur Rəcəbov təsnifat mərhələsində mübarizəni dayandırıblar.

Qeyd edək ki, turnirin ümumi mükafat fondu 220 min ABŞ dollarıdır. Qalib şahmatçı 60 min, finalçı 40 min, 3-cü yerin sahibi isə 25 min ABŞ dolları qazanıb.




Xatırladaq ki, Teymur Rəcəbov "Champions Chess Tour" seriyası çərçivəsində keçirilən ikinci - "Airthings Masters"turnirinin finalında Ermənistan təmsilçisi Levon Aronyanı məğlub edərək yarışın qalibi olmaqla yanaşı, həm də seriyanın finalına vəsiqə qazanıb. Şahmatçımız seriyanın üçüncü mərhələsində - "Opera Euro Rapid" turnirində isə üçüncü yeri tutub.

Hekayə

# Qadın məntiqi



*Mobil İSMAYILOV*



Populyar müğənninin konserti bitdikdən sonra saraydan çıxan ər-arvad bir qədər piyada gəzmək istədilər.

- Yaxşı oxuyurdu, xoşuma gəldi. Səsi, ifası gözəl, axıcı idi, - deyə kişi konsertlə bağlı təəssüratına başladı.

- Nəyi yaxşıydı? Görmədin, səsi cırdır. Ona görə də daha çox xarici mahnılar ifa edirdi, - deyə xanım da fikrini bildirdi.

- Hər halda məşhur estrada ulduzu kimi qəbul edilir, sevilir. Çoxları bu səsi dinləməkdən doymur.

- O qədər alqışlara, qulaqbatırıcı gurultulara layiq deyildi. Müğənnidən çox, yaxşı model çıxar. Çox arıq idi, boyu da uzun.

- Yaxşı, qoy, yenə də sən deyən olsun. Acmışam, özümüzü çatdıraq evə. Ucuz yerdən ət alsan da, dadlı bişirirsən. Hərçənd atalar deyib ki, ucuz ətin şorbası olmaz.

- Baxır bişirənə. Aşbaz var ki, bahalı ətdən bişirdiyinin dadı olmur. Aşbaz da var ki, ucuz ətdən bişirdiyini yeyərsən, hələ barmağını da yalayarsan.

O, ər-arvad münasibətlərində, məişət məsələlərində, hətta qida reseptləri ilə bağlı nəsə qeyri-adi, maraqlı bir şey deməyə də ehtiyat edirdi. Arvadı dərhal soruşa bilərdi ki, bu incəlikləri sənə kim deyib, qadın söhbətlərinə uyğun gəlir, bilgiləri, məlumatları harda öyrənmisən, kimdən eşitmisən və sairə.

- Əzizim, uşaqlar artıq böyüyüblər. Müəyyən inciklikləır, anlaşılmazlıqlar da keçmişdə qalıb. Gəl, onların yanında söz güləşdirməyək. Gözəl hissləri bölüşməyi bacaraq. Onda bu hisslər daha da gözəlləşəcək. Həyata olan baxışlar formalaşanda, həqiqətə, reallığa söykənəndə duyğular, düşüncələr də mənalı, dərin olur. Sözü necə deməkdən çox şey asılıdır. Həvəsin olmalıdır ki, lazımı sözü tapıb deyə biləsən. Sözlər - qəlbin güzgüsüdür.

- Deyəsən, müğənni səni ruhlandırıb, duyğulandırıb. Hər halda bir-birimizə qarşı nəzakətliyik. Acı sözlər demirik ki. Sadəcə, hərdən fikirlər haçalanır, vəssəlam. İncikliklər isə çoxdan yaddaşımın ən uzaq küncünə qovmuşam.

- Düzdür, fikir ayrılığında ürək sındırmırıq. Belə bir qorxumuz yoxdur. Görünür, bəzi hallarda düşünmədən, mexaniki etiraz edirik bir-birimizə.

Müdrik, alicənab, nurlu bir insan olan Zəki Bəyazlı idman akademiyasında kafedra müdiri işləyirdi. Peşəsinin vurğunuydu. Yüksək mədəniyyətə, zövqə malik olan bu ziyalı incəsənətin incəliklərinə də çox yaxşı bələd idi. Nəzərə çarpacaq yumor hissi ilə seçilirdi.

Təmiz qəlbli, ünsiyyətcil, ətrafına ayıq gözlə baxan, daim mütaliəli, yetərincə məlumatlı, eyni zamanda da bir qədər emosional xarakterli Cahan xanım kollecdə direktor müavini kimi çalışırdı.

Tələbəlik illərinin tanışlığı, onların yaxınlığı və səmimi münasibətləri sonradan nikahla nəticələnmişdi. Bir qız və bir oğul sahibi idilər.

Şam yeməyindən sonra:

- Qarşıdan gələn Novruz bayramı münasibəti ilə sənə sürpriz etmişəm. Turizm şirkəti ilə Şimali Qafqaz məkanına səyahət proqramını danışmışam. Əlbəttə, indi bizdə də gözəl, bənzərsiz yerlər çoxdur. Ancaq bir gedək o yerlərə, oraları gəzib dolaşaq, havasını udaq, ruhumuzu təzələyək, - deyə Zəki şən halda dilləndi.

- Mənə qalsa, Avropanı, heç olmasa, Türkiyəni seçərdim.

- Gələn dəfə də sənin seçimini həyata keçirərik.

İşə gələn kimi Zəki Bəyazlı rektoru həm bayram münasibəti ilə təbrik etmək, həm də səfərlə bağlı məlumatlandırmaq üçün onun yanına getdi. Yaşlı, təcrübəli, xoş sifətli olan akademiyanın rəhbəri Zəkini və Cahanı çoxdan tanıyırdı. Hətta onların hər ikisinə dərs demişdi. Buna görə xidməti münasibətlərindən başqa ailəvi əlaqələri də var idi.

- Uşaqlar necədir? Cahan xanımla anlayırsınız bir-birinizi?

- Əvvəllər hərdən barıt kimi partlayırdı. Çoxdandır ki, belə deyil, amma emosionallığı qalıb. Cahan hər gün məndən tərif eşidir. Əsas odur ki, aramızda soyuqluq, inciklik yoxdur. Arabir hökmünü yerinə yetirmək istəyir. Bir də görürsən bəsit, mənə etibarı ilə adi məsələ barədə mübahisəyə başlayır. Əks mövqedə olsaq da, könül qırmırıq. Əslində bu, instinkt olaraq baş verir. Sanki qabağını almaq mümkün deyildir. Söylədiyi fikirlər, ideyalar bəzən məntiqə zidd olur. Bəlkə də qadın yanaşmasından doğur sadəcə. Hər halda maraqlı görünür. Ancaq bir-birimizə lazım olduğumuzu başa düşürük, doğmalığımızı anlayırıq. Təbii ki, uşaqlar da mühüm rol oynayır. Fikir ayrılığını tez unuduruq. Sanki heç nə olmayıbmış kimi...

- İdeal ailə haqqında düşüncələr yanlışdır. Bir-birinə güzəştə gedənlər isə həmişə udurlar. Cahan çox yaxşı qadındır. Həyatını sənə, uşaqlarına həsr edib. Ürəklərə gedən yol sevgidən başlayır. Səhər işə həvəslə gedənlər, axşamlar da evə tələsənlər xoşbəxt adamlardır. Başqa nə yenilik var? İtiniz necədir? - deyə rektor təbəssümlə hal-əhval tutmaqda davam etdi.

- Əvvəllər it arvadımın qəlbində birinci yeri tuturdu. İndi ilk yeri mən tuturam. Məni gülər üzlə, şirin sözlə qarşılayır.

- Buna necə nail olmusan?

- Bilirsiniz, it o qədər ərköyünləşib ki, arvadımın hazırladığını, bişirdiyini yemir. Amma mən yeyirəm.

Hər ikisi qəhqəhə çəkib güldülər.

Daha sonra Zəki gülməyinə ani ara verib:

- Cahan israfçı olmasa da, pul yığa bilmir. Qənaət etmək məqsədi ilə bir neçə dəfə evdə arvadımdan pul gizlətmişəm. Amma yeri sonradan yadımdan çıxır. Məcbur olub Cahanla birgə axtarırıq, - deyəndə, hər ikisinin bərk gülüşü qəbul otağında da eşidildi.

- Hə, indi insanların çoxu psixoloji gərginliklər, qayğılar ucbatından fikirli, səbirsiz, həssas, dözümsüz olublar. Bu baxımdan istirahət səfərləri çox faydalıdır. Planlarınız necədir?

- Hələlik konkret yer seçimi etməmişik. Amma təklifim hər bir halda Cahanın ürəyincədir. Kurort şəhərlərinin birini nəzərdə tutmuşam.

Akademiyanın rəhbəri onlara yaxşı yol diləyib gözəl istirahət arzuladı.

Bir neçə gündən sonra Cahan futbol oynamaqdan gələn yeddinci sinif şagirdi olan oğlunu danlamağa başladı:

- Gör, nə gündəsən! Tərin, çirkin içindəsən. Tamam yaşsan, xəstələnəcəksən. Bir daha səni bu vəziyyətdə görməyim, başa düşdün?!

Futbol həvəskarı olan Zəki oğlunun müdafiəsinə qalxdı:

- Cahan, burada nə var ki? Bütün uşaqlar futbol oynayırlar. İndi futbolu sevməyən uşaq var?

Cahan suala maraqlı bir cavab ünvanladı:

- Əgər bütün uşaqlar oğurluğa getsə, sənin oğlun da getməlidir?!

Zəki arvadının bu məntiqinə təəccüblənsə də, başqa heç nə demədi. Daha sonra Cahan sözlərinə davam etdi:

- Oğlunu da öz halına salma. Futbola baxanda məndə mənfi emosiyalar yaranır. Bir dəstə düşür topun dalınca. Anlaya bilmirəm sadəcə. Sən uşaqlıqdan futbol oynayıb komandalarda çıxış etmisən. Bu yaşında da əl çəkmirsən, işdən sonra, şənbə-bazar da gedib oynayırsan. Nə əldə etmisən ki, indi də oğlunu dartırsan. Vaxtında imkan vardı ki, Kanadaya köçək. Bax, orada uşaq buzun üstündə hokkey oynayardı. Hətta lap futbolçu da olardı. Özünə də bir gün ağlayardı. Yoxsa, burada, heç kimə lazım olmayan futbolçu. Bundan sonra da gərək, ayağını, qolunu əzməsinin, zədə almasının dərdini çəkək. Qoymayacağam getsin futbol seksiyasına. Onsuz da tanış tapmasan, əlaqə yaratmasan heç bir komandaya götürməyəcəklər. Qoy dərsləri ilə məşğul olsun, musiqi məşğələlərinə davam etsin, xarici dil öyrənsin. Hər dəfə müəllimlərlə mən danışıram. Bir dəfə də get sən söhbət elə, “əla” qiymətlərin sayı çox olsun.

Yatmağa hazırlaşdıqları vaxt Cahan ərinə yeni bir məlumat verdi:

- Keçən dəfə üstüörtülü demişdim. Qızımız bir basketbolçu oğlanla tanış olub. Eyni universitetdə oxuyurlar. Fikirləri ciddidir, ailə qurmaq istəyirlər. Mən də fikirləşirdim ki, nağıllarda olan “prins” gələcək, ağ atın belində qızımızı öz qəsrinə aparacaq. Qismətinə idmançı çıxıb.

- İndi yaxşı idmançılar təkcə nağıllarda deyil, real həyatda da olan şəhzadələrdir. Qızımızın qərarına mane ola bilmərik. Əsas odur ki, bir-birilərini sevsinlər. Daha belə məsələləri gənclər özləri həll edirlər.

- Amma mənim könlüm yoxdur.

- Niyə?

- Eşitmişəm ki, hündürboylu oğlanların uşaq məsələsində problemləri olur. Bu oğlanın da boyu iki metrə yaxındır.

- Onda gərək heç bir basketbolçunun uşağı olmasın. Burada boyun heç bir əhəmiyyəti yoxdur. Daha gecə vaxtı heç nə demə. Yatmaq lazımdır. Sabah uçuruq.

... Sanatoriyada günlərin birində onlar tanınmış psixoloq-alimin “Qadın məntiqi” mövzusunda mühazirə oxuyacağı barədə maraqlı bir elana rast gəldilər.

Zəki sevincək bildirdi:

- Cahan, bu mövzu sənə aiddir. Mütləq gedək.

Cahan həvəs göstərməsə də, ərinin təkidindən sonra razılaşmağa məcbur oldu. Psixoloqun dedikləri həqiqətən çox maraqlı idi: “Kişi məntiqinə görə hər hansı bir məsələyə münasibət, mühakimə ya həqiqidir, ya da əksinə. Qadın məntiqi isə konkret məsələyə, prosesə daha çoxşaxəli yanaşır. Tədqiqatlar göstərir ki, qadın beyninin fəaliyyəti kişi beynindən fərqlənir. Cinslər arasındakı problemlərin kökünü elə burada axtarmaq lazımdır. Həm də qadın beyni kişi beyni ilə müqayisədə bir qədər kiçikdir. İnsan beyninin sağ və sol yarımkürələri sinir yığınından ibarət düyünlə birləşib. Bunun sayəsində beynin hər iki tərəfi bir-biri ilə sıx əlaqədədir. Yarımkürələr daim ünsiyyətdə olmaqla informasiyaları bir-birinə ötürə bilir. Təsəvvür edin ki, sizin çiyninizdə kabellə birləşmiş iki kompyuter var. Bu kabeli sinir düyününə bənzətmək olar. Yəni, funksiyası eynidir. Məlum olub ki, bu düyün qadın beynində daha qalın olmaqla 30 faiz çoxdur. Buna da qadın hormonu olan estrogen səbəb olur. Qadınlar və kişilər hər hansı bir məsələ ətrafında fikir söyləyərkən müxtəlif yarımkürələrdən istifadə edirlər. Məşhur qadın məntiqi fikri də elə bununla izah olunur. Qadın sadəcə olaraq sinir düyününün artıq olmasına görə daha böyük izahlar, variantlar, imkanlar görür”.

Professor mühazirəsini belə bitirdi: “Xoşbəxt həyatın sirləri, səadətə aparan yollar çoxdur. Bunlardan ən əsası qarşılıqlı anlaşmadır. Hər birinizə bunu arzulayıram”.

Mühazirə bitər-bitməz onlar bir-birinə baxıb gülümsədilər.

- Eşitdin, bir də mənim dediklərimə qulp qoyma, - deyə Cahan mənalı baxışlarla ərini süzdü.

- Hə, nə gözəldir görmək, anlamaq, eşitmək, dinləmək! - deyə, Zəki qaşlarını çatıb dərindən köks ötürdü və bir neçə saniyə gözlərini harasa zilləyib düşüncələrə qərq oldu: “Ömür-gün yoldaşımla yol yoldaşlığım davam edir. Bu özü elə böyük xoşbəxtlikdir. Dünyanın gözəllikləri, sevgisi qoşa addımlayanda əbədiyaşar olur. Biz ürəyimizdə sevgi daşıyırıq. Bu sevginin gücü ilə həyatda möhkəm dayanan insanlarıq”.

Bayıra çıxdıqdan sonra Zəki Cahanı qucaqlayıb özünə sıxdı və az qala pıçıltı ilə dedi:

- Professor bütün suallara aydınlıq gətirdi. Uğurlu ailə qadın məntiqini anlamalıdır. Xoşbəxt ailənin formullarını professor sonda qadın məntiqinə bağladı. Bir-birimizin qədrini bilək. Gəl, bundan sonra axtarmayaq ki, kim haqlıdır. Bu gündən nöqtə qoyduq. Qoy, bütün mübahisələrimiz gülüşlə bitsin!... Yaşasın xoşbəxt cütlük!..

# FUTBOL

## Avropadan transfer xəbərləri




### İspaniya

“Roma”nın yarımmüdafiəçisi Qonzalo Vilyar karyerasını İspaniyada davam etdirə bilər. “Atletiko” 23 yaşlı yarımmüdafiəçi ilə maraqlanır. Onun qiymətinin 15 milyon avro olduğu bildirilir.

Qeyd edək ki, Q.Vilyar bu mövsüm İtaliya A seriyasında 25 oyun keçirib və 5 sarı vərəqə alıb.

* * *

“Barselona” yayda heyətdə ciddi dəyişikliklər edəcək. Klub rəhbərliyi qapıçı Netu, müdafiəçilər - Juan Firpo, Samuel Umtiti, yarımmüdafiəçilər - Miralem Pyaniç, Riki Puç, Karles Alenya, Filippe Koutinyo və Antuan Qrizmann ilə yollarını ayırmaq fikrindədir.

“Barselona” “Valensiya”dan Fabio Blankonu almaq istəyir. 17 yaşlı yarımmüdafiəçini transfer etmək “Barselona” üçün əsas hədəf hesab edilir. Növbəti həftələrdə klub ispaniyalı oyunçunun keçidi üçün işlərə başlayacaq.

* * *

Madrid “Real”ı icarə əsasında “Tottenhem”in formasını geyinən Qaret Beyl və “Arsenal”da çıxış edən Martin Edeqor barədə qərarını açıqlayıb. “Kral klubu” yayda Beyli “Tottenhem”ə 15 milyon avroya sataraq həm qazanc əldə etmək, həm də ona külli miqdarda maaş ödəmək istəmir. Beyldən fərqli, ispanlar Edeqoru “Arsenal”a birdəfəlik satmaq niyyətində deyil. Rəhbərlik onu mövsümün sonunda heyətə cəlb etmək istəyir.

Qeyd edək ki, Beylin “Real”la müqavilə müddəti gələn ilin, Edeqorun isə 2023-cü ilin yayına qədərdir.

### İngiltərə

“Atletiko”nun futbolçusu Markos Llorente yayda klubunu dəyişə bilər. Mançester Yunayted” 26 yaşlı yarımmüdafiəçi ilə maraqlanır. İngiltərə klubu artıq Llorente üçün Madrid təmsilçisinə 80 milyon avro təklif edib.

“Mançester Yunayted”in qapıçısı Serxio Romero karyerasını Argentinada davam etdirməyə yaxındır. 34 yaşlı qolkiperlə “Boka Xuniors” maraqlanır. Argentinalı oyunçunun yayda azad agent kimi bu kluba keçəcəyi gözlənilir.

* * *

“Arsenal”ın futbolçusu Aleksandr Lakazet yayda komandadan ayrıldığı təqdirdə 29 yaşlı hücumçunu “Roma”, “Atletiko”, “Sevilya” kimi klublar heyətinə qatmaq istəyəcək. Onun “topçular”la hazırkı müqaviləsinin müddəti 2022-ci ilin yayına qədərdir. London təmsilçisi isə həlli fransalı oyunçuya yeni müqavilə təklif etməyib.

Qeyd edək ki, Lakazet bu mövsüm Premyer Liqada 25 matçda 11 qol vurub və 2 qolun ötürməsini verib.




* * *

“Liverpul” rəhbərliyi İtaliyanın “Torino” klubundan Vilfrid Sinqonu heyətində görmək istəyir. “Liverpul” 20 yaşlı müdafiəçi üçün 20 milyon avro təklif etsə də, qarşı tərəf susur. “Torino”nun yetirməsi olan Sinqo bu mövsüm A Seriyasında 21 oyunda 1 qol, 3 məhsuldar ötürmə ilə yadda qalır.

“Atletiko”nun futbolçusu Luis Suares yenidən “Liverpul”a qayıda bilər. “Liverpul”un uruqvaylı oyunçuya görə Madrid təmsilçisinə təklif göndərməyə hazır olduğu bildirilib. Suares 2011-2014-cü illərdə Mersisayd klubunda oynayıb. O, 133 matçda 82 qol vurub və 47 qolun ötürməsini verib.

Xatırladaq ki, 34 yaşlı hücumçunun “Atletiko” ilə müqaviləsi 2022-ci ilin iyununda başa çatır.

### Almaniya

“Borussiya” futbolçusu Erlinq Haalandın qiymətini artırıb. Dortmund təmsilçisi bir çox klubun maraqlandığı norveçli hücumçu üçün 180 milyon avro istəyir. Qeyd edək ki, 20 yaşlı oyunçunun klubu ilə müqaviləsi 2024-cü ilin iyununda başa çatır. Onunla “Mançester Yunayted”, “Mançester Siti”, “Çelsi”, “Real”, “Barselona” və “Bavariya”nın maraqlandığı iddia olunur.

### İtaliya

“Yuventus” Adrian Rabyo ilə Avropanın digər nəhəng klubları maraqlanır. İspaniya “Barselona”sı və İngiltərənin “Mançester Siti” klubu 26 yaşlı fransalı yarımmüdafiəçini heyətinə qatmaq istəyir. İtaliya çempionu Rabyonu satmaq istəsə, klublar onun transferini nəzərdən keçirəcək.

Qeyd edək ki, Adrian Rabyo 2019-cu ilin iyulunda Fransa PSJ-sindən “Yuventus”a keçib. Onun Turin təmsilçisi ilə müqaviləsi 2023-cü ilin yayında başa çatmalıdır.

* * *

“İnter”in mövsümün sonunda yollarını ayıracağı ilk futbolçu müəyyənləşib. Müdafiəçi Eşli Yanq yayda “neradzurra”nı tərk edəcək. A seriyası təmsilçisi 36 yaşlı sol cinah oyunçusu ilə mövsümün sonuna qədər olan müqavilə müddətini uzatmamaq qərarına gəlib. Hələ də karyerasını bitirmək istəməyən İngiltərə millisinin sabiq üzvü karyerasını Premyer Liqada davam etdirmək niyyətindədir. Qeyd edək ki, Eşli Yanq “İnter”ə ötən ilin əvvəlində “Mançester Yunayted”dən keçib.

### Fransa

PSJ Xuan Bernatla yeni müqavilə imzalayıb. Paris təmsilçisi İspaniya millisinin yarımmüdafiəçisi ilə razılaşmanın müddətini 2025-ci il iyunun 30-dək uzadıb. Qeyd edək ki, 28 yaşlı oyunçu ciddi zədə səbəbindən cari mövsümdə cəmi 3 görüşdə meydana çıxıb.

### Türkiyə

“Qalatasaray” “İnter”in futbolçusu Arturo Vidalla yaxından maraqlanır. İtaliyanın “Tuttomercato” saytında yer alan xəbərə görə, 33 yaşlı yarımmüdafiəçini “Marsel” və “Flamenqo” ilə yanaşı, İstanbul təmsilçisinin heyətinə qatmaq istədiyi bildirilib.

Qeyd edək ki, karyerası ərzində “Bavariya”, “Bayer”, “Barselona”, “Yuventus” kimi komandalarda da çıxış etmiş Vidal bu mövsüm A seriyasında 30 matç keçirib.

“Qalatasaray” “Real”ın müdafiəçisi Marselonun da xidmətində maraqlıdır. “Real”da əsas heyətdəki yerini itirən ulduz futbolçunun meneceri ilə ilkin təmas qurulub. Ancaq “sambaçı” “İnter” və “Monako”nun da gündəmindədir. “Real” müqaviləsi gələn ilin yayına qədər olan Marselonu başqa kluba pulsuz buraxmağa hazırdır.

Qeyd edək ki, 2007-ci ildən “Real”da çıxış edən Marselo “kral klubu”nun heyətində keçirdiyi 519 oyunda 38 qol vurub, 101 məhsuldar ötürmə verib.

* * *

“Beşiktaş” futbolçusu Vinsent Abubakara yeni müqavilə təklif göndərəcək. Belə ki, qara qartallar” 28 yaşlı hücumçunun çıxışından razıdır və onu buraxmaq istəmir. İstanbul təmsilçisi Abubakarla əlavə 3 illik də müqavilə imzalamağı planlaşdırır. Bu arada kamerunlu futbolçu “Vest hem”in diqqət mərkəzindədir.

Qeyd edək ki, Abubakar bu mövsüm Superliqada 25 matçda 15 qol vurub və 5 qolun ötürməsini verib.







# Dünya idmanı





## Tayson 25 milyon dollarlıq döyüşdən imtina etdi

Peşəkar boks üzrə ağır çəkidə sabiq dünya çempionları Mayk Taysonla Evander Holifild arasında növbəti döyüş baş tutmayacaq. Buna “Dəmir Mayk”ın döyüşdən imtina etməsi səbəb olub. O, 25 milyon dollarlıq qonorar qarşılığında döyüşmək istəməyib. Bunu Holifildin meneceri Kris Lourens açıqlayıb. O bildirib ki, veteranların döyüşünün təşkili reallaşmayacaq: “Düşünürdük ki, hər şey həll olunub. Amma hər şey alt-üst oldu. Taysonun nümayəndələri bütün təkliflərimizi geri çevirdi. Neçə müddətdir boşuna vaxt itirmişik”.

Xatırladaq ki, əfsanəvi boksçular Mayk Tayson və Evander Holifild arasında keçirilməsi planlaşdırılan döyüşün mayın 29-da təşkil olunacağı bildirilirdi.

## *Həlledici döyüşün vaxtı açıqlandı*

Keçmiş UFC çempionu, irlandiyalı Konor Makqreqorla amerikalı Dastin Porye arasında üçüncü və həlledici döyüş iyulun 11-də keçirilə bilər. Bu barədə Gürcüstanın UFC-də rəsmi tərəfdaşı olan Adjaraspot telekanalı məlumat yayıb.

Qeyd edək ki, iki idmançının ilk döyüşü 2014-cü ildə baş tutub. O zaman qələbəni irlandiyalı idmançı qazanmışdı.

2021-ci ilin yanvar ayında keçirilən döyüşdə isə Dastin Porye qalib gələrək revanş almışdı.



## olimpnews.az - sizin saytınız




## Hemilton yeni mövsümə qələbə ilə başladı

“Mersedes”in pilotu Lüis Hemilton Formula 1 üzrə Bəhreyn Qran-prisinin qalibi olub. Britaniyalı pilot karyerasında 96-cı qələbəsinə imza atıb. 2021 mövsümünün ilk Qran-prisi 56 dövrədən ibarət olub. 7 qat dünya çempionu finişə birinci çataraq, 25 xal toplayıb. “Red Bull”un niderlandlı pilotu Maks Ferstappen ikinci yerin sahibi kimi 18 xala yiyələnib. Üçüncü yeri tutan “Mersedes”in digər sürücüsü Valtteri Bottas isə 16 xal qazanıb.

Ümumilikdə finişə 20 pilotdan 16-sı çatmağı bacarıb. Nikita Mazepin (“Haas”) 1-ci, Fernando Alonso (“Alpine”) 35-ci, Nikolas Latifi (“Uilyams”) və Pyer Qasli (“Alfa Tauri”) 55-ci dövrədə mübarizəni dayandırıb.

Qeyd edək ki, Formula 1-in növbəti mərhələsi aprelin 16-18-də İtaliyanın İmola şəhərində təşkil ediləcək.



## *“Popkorn” pasportu yeməsəydi...*



“Mançester Yunayted”in futbolçusu Aleks Telles başına gələn maraqlı bir əhvalat danışıb. 28 yaşlı müdafiəçi “Qremio”da çıxış edərkən iti onun passportunu yediyi üçün səfər matçına gedə bilməmək təhlükəsi yaşadığını deyib: “Dostum Cekson Follmanla birgə yaşayırdım. Həmin vaxtlar çox şeyi birlikdə öyrənirdik. İtim “Popkorn”la yeni dostlaşmışdım. Amma o, hər şeyi məhv etdi. Bir gün səyahətdən gəlirdim və Cekson mənə “Popkorn”un mənim pasportumu yediyini dedi. Məsələnin ən pis tərəfi o idi ki, səhəri gün Libertadores kubokunun matçı üçün səfər etməli idik. Yəni, təzə pasport çıxartmaq üçün qaçmaq lazım idi”.

## Keçmiş dünya çempionu karyerasını bərpa edir

Boks üzrə keçmiş dünya çempionu amerikalı Oskar De La Hoya karyerasını bərpa etmək niyyətindədir. Bu barədə o mətbuat konfransında deyib. Keçmiş dünya çempionu bildirib ki, 3 iyulda yenidən rinqə çıxmaq istəyir, lakin o, rəqibinin adını açıqlamayıb.

47 yaşlı De La Hoya 1992-ci ildə Olimpiya çempionu olub. Peşəkar karyerasında keçirdiyi 45 döyüşdə 39 qələbə qazanıb (30-u nokautla nəticələnib), 6 dəfə məğlub olub.

Amerikalı Jeff və Floyd Mayvezerlərə, Bernard Hopkinsə, Menni Pakyaoya, Xulio Sesar Çavesə qarşı rinqə çıxıb.

Onun son döyüşü 2008-ci ildə olub.

## Rusiyada məşqçi oyun zamanı dünyasını dəyişdi

Basketbol üzrə Sankt-Peterburq şəhərinin qadınlardan ibarət komandasının məşqçisi oyun zamanı vəfat edib. TASS xəbər verir ki, Viktor Korolyov 53 yaşında olub. O, Rusiya birinciliyinin bürünc medalları uğrunda keçirilən qarşılaşma zamanı dünyasını dəyişib. “Sankt-Peterburq-1” və “Moskva-3” komandaları arasındakı görüş birincilərin məşqçisinin huşunu itirməsilə əlaqədar 9-cu dəqiqədə dayandırılıb.



Məşqçinin ölüm səbəbi açıqlanmır.

Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168
AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-74-19